BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Humanitar elmlər seriyası* *2008*

# TARİX

## 1920-1930-cu İLLƏRDƏ KƏND TƏSƏRRÜFATININ KOLLEKTİVLƏŞDİRİLMƏSİ PROSESİ AZƏRBAYCAN REALLİĞİNDA

**C.M.CƏFƏROV**
*Azərbaycan Turizm İnstitutu*

1920-1930-cu illərdə Sovet dövlətinin kənd təsərrüfatında həyata keçirdiyi kollektivləşmə siyasəti özünün ziddiyyətliliyi, mürəkkəbliyi baxımından fərqlənən bir proses olmaqla müasir tarix elmində daim maraq doğurmuşdur. Lakin marağın böyük olmasına baxmayaraq, bu dövr kifayət qədər dərindən araşdırılmamış, Kommunist partiyası və Sovet dövlətinin ideoloji diktəsi ilə saxtalaşdırılmış, rəsmi konsepsiyaya uyğun şəkildə təqdim olunmuşdur. Yalnız son onilliklər ərzində – kommunizmin iflasından sonra aparılan tədqiqatlarda bir çox həqiqətlər aşkara çıxmış, tarixin bu qaranlıq səhifələrini işıqlandırmaq üçün şərait yaranmışdır (1). Qeyd etmək lazımdır ki, kənd təsərrüfatının kollektivləşmə prosesi Sovetlər ölkəsinin hər yerində eyni cür getməmişdir. Kollektivləşmənin templəri, həyata keçirilmə formaları, hətta məqsədləri regionun xüsusiyyətinə uyğun olaraq fərqlənmişdir. Çünki bütövlükdə kollektivləşmənin məqsədi yalnız iqtisadi məqsədlər deyildi. Əslində bu prosesdə siyasi amil daha böyük əhəmiyyət kəsb edirdi. Milli respublikalarda isə bu məsələyə dini və milli amil əlavə olunurdu. Buna görə də Azərbaycan kəndində kollektivləşmə prosesinin spesifikasının və konkret hadisə və proseslərin araşdırılması ictimai elmlər qarşısında duran vacib problemlərdəndir.

1920-1930-cu illərdə kollektivləşmə dövründə Azərbaycan kəndinin real şəraitinin və imkanlarının nəzərə alınmaması, buraxılmış səhvlərdən nəticə çıxarılmaması iqtisadi və siyasi böhrana gətirib çıxarmışdı.

Azərbaycan kəndində kollektivləşmənin yekunları və onun acı nəticələri ilə bağlı fikirləri müəyyən dərəcədə aşağıdakı kimi qruplaşdırmaq olar:

Birincisi, SSRİ–nin digər ərazilərində olduğu kimi Azərbaycan ərazisində də elliklə kollektivləşmə siyasətinə qədər kolxozlar var idi və onlar kooperasiyanın digər formaları ilə birlikdə paralel fəaliyyət göstərirdi. Lakin bu dövrdə onların sayı təsərrüfatın digər formaları ilə müqayisəedilməz dərəcədə az idi. Onların çoxu zərurətdən deyil, yuxarıdan verilən göstərişlər əsasında yaradıldığından rəqabətə davamlı olmayıb, tezliklə dağılırdı.

İkincisi, faktlar sübut edir ki, 20–ci illərin axırları – 30–cu illərin əvvəllərində SSRİ-nin əksər rayonlarında, o cümlədən Azərbaycanda el-

liklə kollektivləşmə üçün lazımi şərait olmamışdır. Bu illərdə nəinki kəndlilərin, hətta rayonların rəhbər işçilərinin böyük əksəriyyəti savadsız və ya az savadlı idi. Kollektivləşmə ideyası, onun məzmunu, təşkili yolları onlara aydın deyildi. Dövlət əsas diqqəti sənayeləşməyə verdiyindən kənd təsərrüfatının kollektivləşməsinə çox cüzi miqdarda belə vəsait ayıra bilmirdi. Kənd təsərrüfatı mütəxəssislərinə böyük ehtiyac var idi. Ölkənin mərkəzi rayonlarına nisbətən Azərbaycana göstərilən texniki xidmət çox aşağı idi.

Üçüncüsü, 1927–1928–ci illərdə taxıl tədarükü ilə əlaqədar fövqəladə qanunların verilməsi Azərbaycanda da gəlirli təsərrüfatların iqtisadi təməlini sarsıtmağa başlamışdı. 1929–cu ilin ortalarında varlı kəndlilərin kolxoza daxil olmasına qadağa qoyulması vəziyyəti daha da gərginləşdirmişdi.

Dördüncüsü, Azərbaycan kəndində kollektivləşməyə marağın olmamasının digər məsələlərlə yanaşı tarixi kökləri də var idi. Əgər rus kəndlində uzun müddət kəndli icması fəaliyyət göstərmişdisə, Azərbaycanda icma çox zəif olmuşdu. Kəndli icması mahiyyət etibarı ilə olmasa da, forma baxımından mülkiyyətin kollektiv münasibətlər ənənələrini formalaşdırmışdı. Bundan başqa SSRİ-nin mərkəzi ərazilərində kollektivləşmənin gedişində fəhlə sinfi həm təşkilatı, həm də ideoloji cəhətdən yaxından iştirak edirdi. Lakin Azərbaycanın əsas sənaye mərkəzi olan Bakı və onun ətrafında sənaye fəhlələrinin tərkibi çoxmillətli idi və fəhlələrin əksəriyyətini qeyri–azərbaycanlılar təşkil edirdi. Çarizmin yeritdiyi müstəmləkə siyasətinə uyğun olaraq fəhlələr arasında mili ədavət toxumunun səpilməsi, dəfələrlə mili qırğınların törədilməsi səbəbindən çoxmillətli fəhlə sinfi ilə yerli millətdən olan Azərbaycan kəndliləri arasında əlaqələr zəif və münasibətlər normal deyildi. Bu da ictimai proseslərə mənfi təsir göstərirdi.

Beşincisi, SSRİ ərazisində olduğu kimi Azərbaycanda da kollektivləşmə dinə qarşı mübarizə ilə paralel aparılırdı ki, bu da əhalinin mütləq əksəriyyətinin qəzəbinə səbəb olurdu.

9 aprel 1929-cu il tarixli AK(b)P MK-nın plenumu kənddə «Allahsızlar cəmiyyəti»nin işini gücləndirmək, dinə qarşı mübarizə, çadra və papağın atılması ilə bağlı məsələləri müzakirə etmişdi. Plenumun qəbul etdiyi qərarda göstərilirdi ki, türk kəndlilərinin «Allahsızlar cəmiyyəti»ndə iştirak etməməsi ən böyük nöqsandır.

Altıncı, kollektivləşmənin əvvəllərində Azərbaycan kəndində hakim partiya təşkilatlarının zəif olması da kollektivləşmə üçün zəmin olmadığını sübut edir. Məsələn, 1929–cu ilin yayında 449 kolxozda cəmi 3 partiya özəyi fəaliyyət göstərirdi. (292, s.10). Sonrakı dövrdə bu rəqəmin yüksəldilməsində süni şişirtmələrə, saxtakarlıqlara yol verildi ki, bu da ciddi problemlərə gətirib çıxardı.

Yeddinci, kollektivləşmənin sərt qaydalarla süngü gücünə aparılması çox böyük acı nəticələrə gətirib çıxarırdı. Kolxoza münasibət sovet hökumətinə münasibət kimi qiymətləndirilir, «kim kolxoza daxil olmursa, deməli, sovet hökumətinin düşmənidir» prinsipi ilə kəndlilərə münasibət bəslənirdi.

Səkkizinci, kolxozların fərdi təsərrüfatların var–yoxdan çıxması hesabına təşkil edilməsi kənddə vəziyyətin daha da ağırlaşmasına səbəb olurdu. Yeni iqtisadi siyasət dövründə torpaq əldə etmiş kəndlilər hər cür əzab–əziyyət hesabına yenicə fərdi təsərrüfatlarını dirçəltmişdilər.

Elliklə kollektivləşmə siyasəti ilə fərdi kəndli təsərrüfatının torpağının, mal–qarasının, ilk dövrlərdə isə hətta toyuq–cücəsinin əlindən alınması insanın təbiətində olan şəxsi mükiyyətçi baxışlar ilə bir araya sığmırdı.

ÜİK(b)P MK-nın 1929-cu ilin noyabrından kəndlilərin zorla kollektivləşməyə cəlb edilməsi, onların mal-qara və əmək alətlərini kolxoza təhvil verməyə məcbur edilməsi bütün regionlarda ağır faciələrə gətirib çıxardı. Bu qərardan sonra öz mal–qaralarını kolxozlara təhvil vermək istəməyən əksər kəndlilər onları kütləvi surətdə kəsməyə başladılar ki, bu da bütün ölkə üzrə mal-qaranın sayının kəskin şəkildə azalmasına səbəb oldu.

1928–1929-cu illərdə taxıl yığımı çox böyük çətinliklərlə həyata keçirilmişdi. 1930–cu illərin əvvəllərində vəziyyət daha da kəskinləşdi. Böhranın dərinləşməsi və represiyaların güclənməsində ÜKP(b) MK-nin və SSRİ XKS-nin 30 iyul 1931-ci il tarixli «Sosializm heyvandarlığının inkişaf etdirilməsi haqqında» (2) qətnamə mühüm rol oynamışdı. Burada kolxozlarda heyvandarlıq fermalarının yaradılması nəzərdə tutulurdu.

Bu qətnamədə ət tədarükü üçün ayrılmış mal-qaranın bir hissəsinin kolxoz fermalarına verilməsi təklif olunurdu. Kollektiv təsərrüfatların ictimai heyvandarlığı üçün kolxozçulardan cavan heyvanların alışını təşkil etmək nəzərdə tutulurdu. Bu təcrübə də ona gətirib çıxardı ki, mal-qara məcburi, zorakı qaydada ictimailəşdirilməyə başlandı. Bu siyasət mal-qaranın kütləvi kəsilməsinə və satılmasına gətirib çıxardı. İctimailəşdirilmiş mal yemin və uyğunlaşdırılmış saxlanma yerlərinin olmaması üzündən tələf olurdu. Bunun kütləvi hal almasını və hökumətin bu dözülməz vəziyyəti düzəltməyə çalışdığını ÜKP(b) MK-nin yerlərdə bu yanlış taktikanı pisləyən 26 mart 1932-ci il tarixli "Mal - qaranın məcburi ictimailəşdirilməsi haqqında" qətnaməsi təsdiq edir.

Bəzi müəlliflərin fikrincə, mal-qaranın və ət tədarükünün bu cür ictimailəşdirilmə siyasəti 1932-ci ildə heyvandarlıqda mal - qaranın sayının daha da azalmasına gətirib çıxarmışdı. 1931-ci illə müqayisədə iri buynuzlu malın sayı 7,2 mln., qoyun və keçilərin sayı 15,6 mln., donuzların sayı 2,8 mln. və atların sayı 6,6 mln. baş azaldı. Müəlliflərin fikrincə, aclığın səbəblərinin aşkarlanması kontekstində ən mühüm amil fərdi təsərrüfatçılardan və kolxozçuların fərdi təsərrüfatlarından mal-qaranın götürülməsi olmuşdu. Bu, zor gücünə həyata keçirilmiş taxıl tədarükü ilə əhəmiyyətli dərəcədə azalmış "ərzaq" bazasını olduqca zəiflədirdi. Bu, əhalisi əsasən heyvandarlıqla məşğul olan respublikalarda xüsusilə öz mənfi təsirini göstərirdi.

Yuxarıdan göstərişlə həyata keçirilən bu siyasətin yerlərdə faciələrə gətirdiyini nəzərə alaraq, kommunist partiyası öz səhvlərini etiraf etmək yox, bunu başqalarının üstünə atmaqla vəziyyətdən çıxmağa çalışırdı. Bununla əlaqədar ÜKP(b) MK kəskin bir bəyanatla çıxış edərək "yalnız koloxozların düşmənləri ayrı-ayrı kolxozçulardan inəklərin və kiçik mal-qaranın məcburi ictimailəşməsinə yol verə bilərlər... bunun partiyanın siyasəti ilə heç bir əlaqəsi yoxdur. Partiyanın məqsədi hər kolxozçunun öz inəyinin, mal-qarasının və quşlarının olmasını təmin etməkdən ibarətdir"-deyə ictimai fikri səbəbkarı kənarda axtarmağa yönəldirdilər.

Bu bəyanatda aşağıdakıların təcili surətdə həyata keçirilməsi təklif olunurdu:

1. Kolxozçulardan inəklərin və kiçik mal-qaranın məcburi ictimai-

ləşdirilməsi cəhdlərinin qarşısı alınsın, MK-nin göstərişini pozanlar isə partiyadan çıxarılsın;

2. İnəkləri və ya kiçik mal-qarası olmayan kolxozçulara şəxsi tələbatları üçün cavan heyvanın alınması və böyüdülməsində yardım göstərilməsi təşkil edilsin .

1931–1932–ci illərdə SSRİ–nin bir sıra regionlarında baş vermiş kütləvi aclığın səbəblərini ekspertlər müxtəlif cür izah edirlər. Bəzi ekspertlər bu aclığın Moskvanın Ukrayna xalqına qarşı genosid kimi qiymətləndirilməsini, bəziləri isə bunun hər hansı millətə qarşı çevrilmədiyini, sadəcə obyektiv və subyektiv səbəblərdən əmələ gəldiyni iddia edirlər. Onlar faciənin əsasən aşağıdakı obyektiv və subyektiv səbəblərini göstərmişlər:

- Bu dövrdə şəhərlərin və sənaye mərkəzlərinin əhalisinin artımı (1928–ci ildən 1931 - ci ilə qədər SSRİ- də şəhər əhalisi 12,4 milyon nəfər artmışdı);
- Sənayenin inkişafı və bununla əlaqədar kənd təsərrüfatı məhsullarına tələbatın artması;
- Qərb ölkələrindən maşınqayırma avadanlıqları almaq məqsədilə kreditlərin götürülməsi və əvəzinin əsasən taxıl ixracı ilə ödənilməsi (o dövrdə bunun üçün ildə 500 milyon pud taxıl tələb olunurdu, lakin 1931-1932-ci illərdə hətta rəsmi məlumatlarda da qeyd olunurdu ki, bu illərdə taxıl yığımı əvvəlki illərə nisbətən çox az olmuşdur);
- Bu dövrdə dünya bazarında taxılın qiymətinin aşağı düşməsi;
- SSRİ rəhbərliyinin mümkün olan və mümkün olmayan toxum «qalıqlarının» müsadirə edilməsi haqqında qərar verməsi;
- Mal-qaranın məcburi surətdə ictimailəşdirilməsi və zorakı metodlarla ət tədarükü və s.

Sovet tarixşünaslığı SSRİ-də elliklə kollektivləşmənin müvəffəqiyyətlərindən gen-bol məlumat verdiyi halda, o dövrdə ölkənin müxtəlif regionlarında məhz kollektivləşmənin nəticəsində baş vermiş kütləvi aclıq və milyonlarla insanın aclıqdan tələf olması, hətta acından insan əti yeyilməsi halları kimi dəhşətli faktların üstündən sükutla keçmişdi.

Sovet hakimiyyəti illərində kütləvi aclıq faktları dünya və Sovet ictimaiyyətindən gizlədilmiş, xarici nəşrlərdə bu barədə dərc olunmuş məlumatlar isə daim «burjua saxtalaşdırıcılarının» böhtanı kimi qiymətləndirilərək, inkar edilmişdi.

Kənd təsərrüfatının kollektivləşməsi prosesində sovet tarixşünasliğında səhv kimi qələmə verilən addımlar, göründüyü kimi daha dərin köklərə və səbəblərə malikdir. Hətta müəyyən məsələlərdə ümumi inkişafa zərbə vuran qərar və hərəkətlərin əsasında mərkəzi və yerli hakimiyyət orqanlarının yeritdiyi məqsədyönlü siyasət dayanırdı. Konkret olaraq Azərbaycanda aparılan kursda təzahür edən eybəcərliklərin və faciəli nəticələrin səbəbi görülən işlərin çətinliyindən və dramatikliyindən daha çox, Azərbaycanın taleyinə qərəzli münasibət bəsləyən icraçıların məqsədyönlü fəaliyyəti ilə bağlı idi. Buna görə də kənd təsərrüfatının kollektivləşməsi prosesinin nəticələri Azərbaycan üçün daha ağır olmuşdur.

**QEYDLƏR:**

1. Azərbaycan tarixi. Yeddi clddə. VI cild, Bakı, 2000; Bünyadov Z. Qırmızı terror. Bakı: 1993; Həsənli C. “Ağ ləkə”lərin qara kölgəsi. Bakı: Gənclik,

1991; İbrahimli F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Вакı: 1996; İsmayılov E., Həsənov C., Qafarov T. Azərbaycan tarixi. Вакı: 1995; Кесслер Х. Коллективизация и бегство из деревень — социально-экономические показатели, 1929-1939 гг. // Экономическая история. Обозрение / Под ред. Л.И.Бородкина. Вып. 9. М., 2003; Мамедова Ш. Интерпретация тоталитаризма. Сталинизм в Азербайджане. 1920-1930 гг.- Баку: Адилоглы, 2004; Мамедова Ш. Нуха – Закатальское восстание 1930 г. « История и ее проблемы». Баку: 2001 № 1 və s...
2. Sov. İKP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. III hissə (1930 – 1954) Вакı: Azərnəşr, 1954, s. 391-395.

## ПРОЦЕСС КОЛЛЕКТИВИЗАЦИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В 1920-30 гг. В АЗЕРБАЙДЖАНСКИХ РЕАЛИЯХ

**Дж.М.ДЖАФАРОВ**

### РЕЗЮМЕ

Статья посвящена вопросу об особенностях, проводимой Советской властью в 1920-30 гг., политики коллективизации сельского хозяйства в Азербайджане. Эта политика помимо общих черт и направленности в рамках всего союза, которая сказывалась в общем состоянии всего крестьянства и сельскохозяйственного производства, отличалась своей жестокостью и трагичностью в Азербайджане по некоторым причинам. Эти особенности стали предметом данной статьи.

## PROCESS OF AGRİCULTURAL COLLECTİVİZATİON İN 1920-30 YEARS İN REALİTİES OF AZERBAİJAN

**J.JAFAROV**

### SUMMARY

The article is dedicated to one of the important questions in the history of Azerbaijan – the process of agricultural collectivization in Azerbaijan during 1920-30 years. During this process villagers were exposed to pressure by the government on the pretext of fight for the collectivization. Many of them were arrested, shot, exiled. Thousands were deported. As a fact this period is one of most difficult times of the history of Azerbaijan. The article devoted to the specific issues of this process in Azerbaijan.